## FİLMOQRAFİYA

### Nazik mətləb (film, 2021)




Yazıçı Mir Cəlal Paşayevin “Nazik mətləb” və “İnsanlıq fəlsəfəsi” hekayələrinin motivləri əsasında 2021-ci ildə "Nazik mətləb" adlı film çəkilmişdir.

Film müəllim və tələbə arasında yaranan mürəkkəb münasibətləri, cəmiyyətin və fərdi hislərin toqquşmasını ələ alır.

Gülzar Qurbanova, Rüstəm Cəbrayılov, Gülşad Baxşıyeva, Taleh Yüzbəyov, Sevinc Əliyeva, Nərmin Kərimbəyova, Şakir Əhmədzadə və digər aktyor heyətinin rol aldığı ekran işinin ssenari müəllifi Nicat Dadaşov, rejissoru Emin Muradov, operatoru isə Rauf Qurbanəliyevdir.

Filmin musiqisi Orxan Mürvətli tərəfindən bəstələnmişdir.

“Caspian Media Group”un hazırladığı “Nazik mətləb” filminin layihə rəhbəri Hüseyn Cavadzadə, direktoru İrəm Laçındır.

### İki yad adam (film, 2018)




Film “Addım” Gənclər Təşkilatının sifarişi ilə Caspian Media Group tərəfindən yazıçı Mir Cəlal Paşayevin "Kəmtərovlar ailəsi" hekayəsinin motivləri əsasında lentə alınmışdır.

Film həm də Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən World Cultural Open Organizationun dəstəyi ilə keçirilən Grand Asian Film Festivalının final gecəsində nümayiş etdirilmişdir. "Ən yaxşı sosial mövzu" və "Ən yaxşı aktyor oyunu" nominasiyasında mükafatlara layiq görülüb.

Bu film haqqında Əməkdar artist Gülşad Baxşıyeva öz təəssüratlarını bölüşərkən bildirib ki, Mir Cəlal Paşayevin əsərini canlandıran film 35 dəqiqə olsa da, çox dəyərli alınıb. Çünki filmdə bu gün üçün aktual problemlər işıqlandırılıb. "Bəzən gənclərin fikri, meyili, sadəcə, biznes qurmağa, pul qazanmağa yönəlir və bu zaman ailəyə önəm vermək ikinci planda qalır. Burada diqqəti çəkən məqam Mir Cəlal Paşayevin illər öncə bu kimi problemləri qələmə almasıdır. Çox aktual əsər olmaqla yanaşı, həm də klassikadır. Bu filmlə gənclərə mesaj göndərilir ki, onlar öz həyat yoldaşlarına, ailələrinə önəm versinlər.

Filmdə Qulam obrazının ifaçısı Riyad Abdul isə film haqqında bu fikirləri söyləyib: "Bildiyimiz kimi, bu film artıq bir neçə ölkədə, bir çox festivallarda - Vyanada, Pekində, Qazaxıstanda, Gürcüstanda nümayiş etdirilib. Film haqqında yaranan fikirlər isə hər zaman müsbət olub. Çünki bu filmin dəyəri, mənası var. Ümumiyyətlə, Mir Cəlal Paşayevin əsərlərində belə dərin mənalar öz əksini tapır".

## Üç zirvənin fatehi (film, 2008)



2008-ci ildə Bakı Dövlət Universitetində (BDU) Azərbaycan ədəbiyyatının və elminin inkişafına əvəzsiz töhfələr vermiş böyük ədib və alim, görkəmli pedaqoq, ictimai xadim, professor Mir Cəlal Paşayevin 100 illik yubileyinə həsr olunmuş ikigünlük elmi konfrans keçirilmişdir.

Elmi konfransda ayrı-ayrı dövlət qurumları nümayəndələri, tanınmış elm və mədəniyyət xadimləri, ali məktəb rektorları, pedaqoqları, deputatlar, Rusiya, Ukrayna və digər ölkələrdən olan alimlər iştirak etmişdilər.

Tədbirdə professor Mir Cəlal Paşayevin həyat və fəaliyyətindən bəhs edən "Üç zirvənin fatehi" sənədli filmi nümayiş etdirilmişdir.

## Mətbuat fədaisi (film, 2007)

2007-ci ildə çəkilmiş sənədli televiziya filmdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin həyat və yaradıcılığından, ədəbi və elmi irsindən, Azərbaycan mətbuatının inkişafındakı rolundan bəhs olunmuşdur. Onun maarifçilik fəaliyyəti, müəllimlik fəaliyyəti və ədəbi yaradıcılığı filmdə geniş şəkildə işıqlandırılır.

## Bir ailə (film, 1943)




Tammetrajlı bədii film rejissor Qriqori Aleksandrov tərəfindən 1943-cü ildə ekranlaşdırılmışdır. Bakı Kinostudiyasında istehsal edilmişdir. Filmdə İkinci Dünya müharibəsi illərində müxtəlif millətlərdən olan adamların vətənpərvərliyindən və dostluğundan danışılır. Əsas rolları Xosrov Məlikov, Mərziyyə Davudova, Lyubov Orlova, M. Jarikov və Antonina Filipova ifa edirlər. Bu film Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında dövlət varidatı elan edilən filmlərin siyahısına daxil edilmişdir.

Film vahid süjet xətti ilə bir-birinə bağlı olan üç novelladan ibarətdir.

Film bəstəkar Qara Qarayevin kinoda ilk işidir.

Kinoşünas Aydın Kazımzadə "Azərbaycan kinematoqrafçıları" kitabında filmlə bağlı belə bir maraqlı faktı qeyd edib: çəkiliş zamanı səhnələrdən birində tankın partladılması lentə alınmalıydı. Rejissorun və Orlovanın xahişi ilə meydana hərbi hissədən tank gətirilir. Rejissorlara tankın çəkilişdən sonra hərbi hissəyə göndəriləcəyi deyilir. Partlayış saxta olmalı, səhnəni müxtəlif nöqtələrdən dörd kamera çəkməliydi. Amma tank həqiqətən partlayır. Həyəcan siqnalı çalınır və partlayış səsinə yaxınlıqda yerləşən hərbçilər gəlirlər. Bir göz qırpımında çəkiliş meydanı əhatəyə alınır. Partlayış vaxtı dörd kameradan üçü işləmir. Çünki partlayışdan şok yaşayan operatorlar kameranı işə sala bilmirlər. Yalnız operator Koretski özünü itirməyib və çəkilişi davam etdirib. Beləcə cəbhəyə göndəriləcək tank məhv olub.

1 mart 2018-ci ildə Mir Cəlalın 110 və Qara Qarayevin 100 illik yubileyləri münasibətilə filmin Nizami Kino Mərkəzində bərpa edilmiş variantının təqdimatı keçirilib.